# "Türkiyənin düşmənlərinin sayı çoxalıb"

## Elman Nəsirov: "Ankarada törədilən terror aktının arxasında dayanan əsas amil Türkiyənin regionda ciddi fiqura çevrilməsidir"

**Türkiyənin paytaxt şəhəri Ankarada fevralın 17-də törədilən terror aktı nəticəsində 28 nəfər həlak olub, 61 nəfər müxtəlif dərəcəli xəsarət alıb. Prezident Rəcəb Tayyib Ərdoğan partlayışı PKK terror təşkilatının Suriyadakı qanadı PYD-nin törətdiyini açıqlayıb. ABŞ-ın Dövlət Departamenti isə belə bir ərəfədə bəyanat yayaraq PYD-ni müttəfiqi adlandırıb. Departamentin rəsmi nümayəndəsi Con Kirbi qeyd edib ki, PYD İŞİD-lə mübarizədə ciddi rol oynayıb. Onun sözlərinə görə, NATO tərəfindən bu qruplaşmanın bütün əməliyyatı havadan dəstəklənir və gələcəkdə də PYD-yə hərbi yardımların davam edəcəyi gözləniləndir. Türkiyədəki terror hadisəsi, bu aktın arxasında dayanan siyasi maraqlar, qaçqın miqrantlar arasında terrorçuların olması, onlara qarşı mübarizə və sair məsələlərlə bağlı "Kaspi"nin suallarını Milli Məclisin deputatı, politoloq Elman Nəsirov cavablandırır.**



**- Elman müəllim, Ankarada törədilən və çoxsaylı insan itkisi ilə müşayiət olunan terror aktının arxasında nə dayanır, terrorçuların məqsədi nədir?**

- Paytaxt Ankarada törədilən terror aktının arxasında dayanan əsas amil Türkiyənin regionda son dərəcə ciddi fiqura çevrilməsidir. Baş nazir Əhməd Davudoğlu hələ xarici işlər naziri olarkən bildirmişdi ki, 20 il bundan öncə Türkiyə Yaxın Şərq regionunda baş verən hadisələrə müdaxilə etməz, bunu öz işi hesab etməzdi. Türkiyə ancaq öz problemləri ilə məşğul olurdu. Lakin bu gün Türkiyə regionda elə bir güclü oyunçuya çevrilib ki, ətrafında baş verən hadisələrə biganə qala bilməz və bilmir. Bu istiqamətdə Türkiyənin dövlət, milli maraqları nəzərə alınır və müvafiq addımlar atılır. Bu fikirlərlə Davudoğlu demək istəyirdi ki, beynəlxalq aləm Türkiyənin addımlarını, onun motivlərini başa düşsün. Nəzərə alaq ki, Ankarada terror aktını PKK-nın Suriya qanadının törətdiyi məlumdur. Belə şəraitdə, hadisənin motivlərini Türkiyənin Suriya siyasətində daha çox tapmaq mümkündür. Türkiyə Suriyada baş verən hadisələrə çox böyük həssaslıqla yanaşır və rəsmi Ankaranın bu mövqeyi başadüşüləndir. Suriyada müharibə başlayandan 4,5 milyona yaxın insan qaçqın, 7 milyondan artıq adam isə məcburi köçkün vəziyyətinə düşüb. Ümumilikdə götürsək, 11 milyona yaxın suriyalı öz evindən, vətənindən didərgin düşüb, bir çox ölkələrə səpələnib. Bu isə 22 milyonluq Suriya əhalisinin 50 faizi deməkdir. 4,5 milyona yaxın suriyalı qaçqının 1,2 milyonu Livana, 2 milyonu Türkiyəyə sığınıb. Bu da Türkiyə üçün çox ciddi problemə çevrilib. Böyük sayda suriyalı qaçqının Türkiyəyə sığınması bu dövlətin təhlükəsizliyi üçün təhdiddir. Çünki həmin qaçqınların içərisində terrorçu qruplaşmaların üzvlərinin də olması mümkündür. Onlar qaçqın kimi Türkiyə ərazisində daxil olur, sonradan terror aktlarında iştirakçıya çevrilirlər. Bununla yanaşı, indiki dönəmdə Türkiyənin düşmənlərinin sayı kifayət qədər çoxalıb. Bu düşmənlər sırasında PKK, İŞİD, Suriyadakı Bəşər Əsəd rejimi də var. Heç kimə sirr deyil ki, rəsmi Ankara Bəşər Əsəd rejiminin legitimliyini tanımır. Belə olan halda, həmin qüvvələr Türkiyəyə qarşı çıxış edir, bu dövləti hədəf seçirlər. Bir qədər əvvəl qeyd etdiyim kimi, Türkiyənin regionda çox güclü dövlətə çevrilməsi, Yaxın Şərqin fövqəldövləti statusuna iddia etməsi, milli maraqlara söykənən, olduqca fəal və çevik, müstəqil siyasət həyata keçirməsi terrorçu qruplaşmaların Türkiyəyə qarşı fəallığını artırır. Burada PKK-nın Suriyadakı qanadının özü də bir alətdir. Daha böyük qüvvələr həmin terrorçu qruplaşmalardan Türkiyə əleyhinə istifadə edə bilərlər.

**- Hadisədən sonra Prezident R.T.Ərdoğan partlayışı PKK terror təşkilatının Suriyadakı qanadı PYD-nin YPG qruplaşmasının törətdiyini açıqladı. ABŞ Dövlət Departamenti isə bəyan etdi ki, PYD onun müttəfiqidir. Amerikanın Türkiyəyə, həmçinin terrorçu təşkilata qarşı belə münasibətini necə izah etmək olar?**

- XXI əsrin vəbası sayılan beynəlxalq terrorizmə qarşı mübarizə imkanları hazırda ona görə məhdudlaşır ki, ortada "yaxşı" və "pis" terrorçu bölgüsü var. Misal üçün, "Əl-Qaida", İŞİD pis, radikal terror təşkilatı kimi tanınır, qəbul edilir. Amma ASALA, Daşnaksutyun kimi terror təşkilatlarına belə münasibət göstərilmir. Hətta terror təşkilatı olan Daşnaksutyun siyasi partiya kimi Ermənistan parlamentində təmsil olunur. Amerikanın özündə də terrorizmə münasibətdə ikili yanaşmalar nəticə etibarilə terrorçuların mənafeyinə xidmət edir. Necə olur ki, PKK ABŞ-da terror təşkilatı kimi tanınır, amma onun Suriyada Bəşər Əsədə qarşı müxalifətdə olan bir qanadı terrorçu kimi qəbul edilmir? Deməli, terrorizmə yanaşmada da siyasi maraqlar ön plana keçir. Əgər sabah PKK-nın Suriya qanadı Bəşər Əsədə loyallıq göstərərsə, heç şübhəsiz ABŞ onu da terror təşkilatı kimi qəbul edəcək. Bu cür siyasi yanaşmalar, ikili standartlar beynəlxalq terrorizmə qarşı mübarizə imkanlarını məhdudlaşdırır. Bu da nəticə etibarilə ABŞ-Türkiyə münasibətlərində "soyuqluğun" yaranmasına səbəb olur. Prezident Ərdoğan açıq şəkildə Amerikaya bildirdi ki, ya biz müttəfiqinizi müdafiə edin, ya da terrorçu təşkilatı. Bununla ABŞ-ı seçim qarşısında qoydu. ABŞ Dövlət Departamenti isə buna cavab olaraq bildirdi ki, rəsmi Vaşinqton "yaxşı" qüvvələri silahlandırıb, ancaq bəzi təsadüfi hallar nəticəsində o silahlar "pis" qüvvələrin də əlinə keçib. Halbuki, departament rəsmisinin bəyanatında yer alan "yaxşı" və "pis" qüvvənin hər ikisi terror təşkilatıdır. Belə yanaşma qətiyyən qəbul edilməzdir. Nə qədər ki, "yaxşı" və "pis" terrorçu bölgüsü var, nə qədər ki, hər zaman və hər yerdə prinsipi ilə beynəlxalq terrorizmə qarşı birgə mübarizə aparılmır, bu bəlaya qalib gəlmək imkanları xeyli məhdudlaşır. Ankarada baş verən son terror aktı bu məntiqi bir daha təsdiq edir. Xatırlayırsınızsa, Parisdə baş verən terror hadisəsindən sonra Fransanın paytaxtında dünya ölkələrinin dövlət və hökumət başçıları, digər rəsmiləri beynəlxalq terrorizmə qarşı yürüş təşkil etdilər, xristian həmrəyliyi göstərdilər. Lakin Türkiyənin paytaxtında törədilən terror aktından sonra belə bir həmrəyliyi, yürüşü biz müşahidə etmədik. Bu faktın özü də ikili standartların bariz nümunəsidir.

**XXI əsrin vəbası sayılan beynəlxalq terrorizmə qarşı mübarizə imkanları hazırda ona görə məhdudlaşır ki, ortada "yaxşı" və "pis" terrorçu bölgüsü var. Misal üçün, "Əl-Qaida", İŞİD pis, radikal terror təşkilatı kimi tanınır, qəbul edilir. Amma ASALA, Daşnaksutyun kimi terror təşkilatlarına belə münasibət göstərilmir. Hətta terror təşkilatı olan Daşnaksutyun siyasi partiya kimi Ermənistan parlamentində təmsil olunur. Amerikanın özündə də terrorizmə münasibətdə ikili yanaşmalar nəticə etibarilə terrorçuların mənafeyinə xidmət edir. Necə olur ki, PKK ABŞ-da terror təşkilatı kimi tanınır, amma onun Suriyada Bəşər Əsədə qarşı müxalifətdə olan bir qanadı terrorçu kimi qəbul edilmir? Deməli, terrorizmə yanaşmada da siyasi maraqlar ön plana keçir**

**- Siz bayaq qeyd etdiniz ki, böyük sayda suriyalı qaçqının Türkiyəyə sığınması bu dövlətin təhlükəsizliyi üçün təhdiddir. Bəs nə etməli? Bəlkə bəzi Avropa ölkələri kimi Türkiyə də sərhədi bağlasın, qaçqın miqrantları qəbul etməsin? Yaxud, Ankara terrorunu törədənin suriyalı qaçqın olduğu nəzərə alınıb, Çeçenistan prezidenti Ramzan Kadırovun etdiyi kimi terror iştirakçısı olan istənilən şəxsin bütün ailə üzvləri ölkədən deportasiya olunsun?**

- Ümumiyyətlə, təhlükəsizlik məsələlərinə xüsusi əhəmiyyət verilməlidir. Avropa İttifaqı belə bir mövqe bildirib ki, Türkiyə Avropaya miqrant-qaçqın axınının qarşısının alınmasında ciddi səddir. Bunun üçün təxminən 3 milyard avro həcmində vəsaitin ayrılması qərarına gəlinib. Halbuki, həmin vəsait hələ də lazımi ünvanına çatmayıb. Miqrantları qəbul etmək bir məsələdir, onların tərkibində terrorçuların da ölkəyə soxulması ikinci məsələdir. Suriyadan Türkiyəyə sığınan insan özünü mülki əhali kimi təqdim edir, sərhədi keçir, sonra isə ölkə daxilində terror niyyətlərini reallaşdırır. Ona görə də təhlükəsizlik baxımından belə məsələlərdə Türkiyəyə dəstək verilməsi, hətta terrorçu olmasına şübhələr olduğu, dəqiqləşdirmələr aparıldığı halda şəxsin həbsi, ailəsinin deportasiyası da vacibdir. Təsəvvür edin, hansısa terrorçu tutulub saxlanılırsa, zərərsizləşdirilirsə, onun ailə üzvləri, qohum-əqrəbası potensial terrorçuya çevrilə bilərlər. Kim zəmanət verə bilər ki, həmin terrorçunun ailə üzvləri, o cümlədən həyat yoldaşı, yaxud da digər qohumları buna görə hüquq-mühafizə orqanlarından qisas almayacaq, haradasa terror aktı törədib bu həbsə etiraz etməyəcək? Ona görə də Suriyadan Türkiyəyə miqrant və ya qaçqın kimi daxil olan, lakin terrorizmi özünə fəaliyyət seçən insanların üzə çıxarılması, həmçinin onlara bağlı insanlar, ailə üzvləri ilə əlaqədar da müəyyən addımlar atılmalıdır. Çünki arxayın olmaq qeyri-mümkündür. Heç kim deyə bilməz ki, terrorçu həbs olunandan sonra onun ailə üzvləri, qohumları dinc yerində oturacaq, baş verənlərlə barışacaqlar.

**Rufik İSMAYILOV**

# ABŞ-ın Yuta Ştatı Azərbaycanın tolerantlıq modelini təqdir edən bəyannamə qəbul edib

**ABŞ-ın Yuta ştatının Senatı və Nümayəndələr Palatası fevralın 17-də Azərbaycanın tolerantlıq modelini təqdir edən geniş bəyannamə qəbul edib. Bu barədə Trend-ə Azərbaycanın Los Ancelesdəki Baş Konsulluğundan məlumat verilib. Bildirilir ki, Senatın sədri, Nümayəndələr Palatasının spikeri, eləcə də digər qanunvericilər tərəfindən imzalanmış bəyannamə Azərbaycanın Los Ancelesdəki baş konsulu Nəsimi Ağayevə təqdim olunub. Baş konsul Yuta Ştat Senatının plenar iclasında çıxış edərək, Azərbaycanda müxtəlif dinlərin sülh, tolerantlıq və qarşılıqlı hörmət şəraitində yaşadıqlarını qeyd edib və belə bir önəmli sənədin qəbuluna görə senatorlara təşəkkürünü bildirib.**

Bəyannaməni təqdim edən senator Cin Deyvis Azərbaycanın 1918-ci ildə müsəlman dünyasında ilk demokratik və dünyəvi dövlət yaratdığını və qadınlara ilk dəfə seçki hüququ verdiyini qeyd edib. Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın sürətlə inkişaf etdiyini bildirən senator ABŞ ilə Azərbaycan arasında strateji tərəfdaşıq münasibətlərinin qurulduğunu diqqətə çatdırıb. Sonra sözügedən bəyannamə oxunub.



Bəyannamədə, Azərbaycanın tarixi tolerantlıq ənənələrinə toxunularaq, burada qədim zamanlardan müxtəlif dini etiqadların, o cümlədən müsəlmanların, yəhudilərin və xristiyanların sülh və əmin-amanlıq şəraitində birgə yaşadığı ifadə olunur. Həmçinin bildirilir ki, hazırda dünyanın müxtəlif bölgələrində dini nifrət, terrorçuluq, dözümsüzlük və ksenofobiya kimi halların artdığı bir dövrdə, Azərbaycan özünəxas tolerantlıq təcrübəsi ilə beynəlxalq ictimaiyyət üçün uğurlu bir model təşkil edir. Bəyannamədə o da vurğulanır ki, Azərbaycan rəhbərliyi belə mütərəqqi mühitin inkişaf etdirilməsində böyük rol oynamaqda və bu prosesləri müxtəlif vasitələrlə dəstəkləməkdədir.

Eyni zamanda, 2016-cı ilin Azərbaycanda Multikulturalizm İli elan olunduğu və aprel ayında Bakıda BMT-nin Sivilizasiyalararası Alyansının Forumunun keçiriləcəyi qeyd olunur və bildirilir ki, ABŞ tolerant və dünyəvi müttəfiqlərini dəstəkləməli və bu səpkidə Azərbaycanın tolerantlıq modelinin bütün dünyada tətbiqinə çalışmalıdır.

Qeyd edək ki, bəyannamə həmin gün Yuta ştatının Nümayəndələr Palatasında da qəbul olunub. Bəyannaməni Nümayəndələr Palatasının üzvü Lin Heminqvey təqdim edib.